# Regionlarla tanışlıq şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında əvəzsiz rol oynayır

***Dövlətimizin başçısının tapşırığı ilə "Ölkəmizi tanıyaq" devizi altında keçirilən növbəti maarifləndirici tur-aksiyalar başa çatıb. Bu il martın 16-19 və 23-26 tarixlərini əhatə edən 7-ci tur-aksiyada 6 istiqamət üzrə 84 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından 3393 nəfər 9-11-ci sinif şagirdi iştirak edib. Bununla da, artıq dördüncü ildir ki, keçirilən "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı, ümumilikdə, 14 minə çatıb.***

***Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə onlarda əyani təsəvvür yaratmaqdır.***

***Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb. Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 6 tur-aksiya təşkil edilib.***

***Məktəblilər ölkəmizin hər bir guşəsi kimi Qəbələ rayonuna da çox böyük həvəslə səfər edir və buradan xoş təəssüratlarla ayrılıblar.***

***Qəzetimizin bu sayında respublikamızın müxtəlif rayonlarından «Ölkəmizi tanıyaq» layihəsi çərçivəsində martın 16-26-da rayonumuza səfər etmiş məktəblilərin qarşılanması, rayonumuzla tanışlıqları və keçirilən digər maraqlı tədbirlər barədə məlumat veririk.***

***Tur-aksiya proqramına əsasən rayonumuzun bir qrup məktəblisi də respublikamızın qərb bölgəsinə səfər etmişdir. Qəzetdə onların həmin rayonlarda qarşılanması, bölgə ilə tanışlıqları və iştirak etdikləri tədbirlər barədə də məlumatlar dərc olunur.***

## "Ölkəmizi tanıyaq" tur-aksiyası maraqlı tədbirlərlə başlandı



Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Gəncə, Gədəbəy, Göygöl, Samux və Şəmkir məktəblilərindən ibarət 5 qrupun üzvləri martın 16-da Qəbələ rayonuna gəliblər. Şagirdləri Qəbələ şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri qarşılayıb.

Rayondakı "Qafqaz Karvansaray" otelinə yerləşən şagirdlər nahar etdikdən sonra Qəbələ ilə tanış olmağa başlayıblar. Şagirdlərə maarifləndirici xarakter daşıyan bu tur-aksiyanın əhəmiyyəti barədə geniş məlumat verilib. Bildirilib ki, onlar tur-aksiyanın proqramına uyğun olaraq martın 16-19-da Qəbələ, Şəki və Zaqatala rayonlarının sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarix-mədəniyyət abidələri, təbiəti, turizm obyektləri, muzeyləri ilə tanış olacaqlar.



Proqrama uyğun olaraq 5 şəhər və rayonun ümumtəhsil məktəblərini təmsil edən 240 şagirdin və onlara rəhbərlik edən müəllimlərin iştirakı ilə Qəbələ şəhərində "Ölkəmizi tanıyaq" devizi altında ağacəkmə aksiyası keçirilib. Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən yaşıllaşdırma aksiyası zamanı məktəblilər 250-dən çox küknar, ağcaqayın və palıd ağacı əkərək onları suvarıblar.

Qəbələdəki Nohur gölü ilə tanışlıq da şagirdlərin marağına səbəb olub. Sıx meşəlik və dağlıq ərazidə yerləşən gölün ətrafında gəzintiyə çıxan məktəblilər xatirə şəkilləri çəkdiriblər. Məlumat verilib ki, dəniz səviyyəsindən 700 metr hündürlükdə yerləşən Nohur gölünün ətrafı sıx meşələr və dağlarla əhatələnib. Sahəsi 240 hektar olan gölün dərinliyi 24 metrdir. Nohur gölünə Dəmiraparan və Vəndam çaylarının suyu axır.

Sonra məktəblilər Vəndam qəsəbəsindəki "Yeddi gözəl" şəlaləsinə səfər ediblər. Onlar gözəl təbiət qoynunda istirahət edib, mənzərəli guşədə şəkillər çəkdiriblər. Şagirdlərə sıx meşəlik və hündür dağlıq ərazidə yerləşən "Yeddi gözəl" şəlaləsi barədə məlumat verilib.

Yengicə kəndindəki "Zoopark"a ekskursiya da şagirdlərə xoş anlar yaşadıb.

Sonra tur-aksiya iştirakçıları Qəbələ Mədəniyyət Mərkəzində xalq teatrının hazırladığı İsi Məlikzadənin "Gəl qohum olaq" tamaşasına baxıblar. Tamaşada aktyorların çıxışı alqışlarla qarşılanıb.

Şam yeməyindən sonra şagirdlərin iştirakı ilə musiqili-əyləncəli tədbirlər və intellektual oyunlar təşkil edilib.

**«Qəbələ».**

## Qəbələyə təşkil edilən tur-aksiya zamanı şagirdlərin istirahəti ilə yanaşı onların maariflənməsinə də böyük önəm verilib

Şəki-Zaqatala-Qəbələ marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Yevlax şəhərinin, Goranboy, Kəlbəcər və Xocalı rayonlarının məktəbliləri Şəki və Zaqatala rayonlarına ekskursiya etdikdən sonra martın 18-də Qəbələyə gəliblər. Şagirdlər Qəbələ şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayon icra hakimiyyətinin və təhsil şöbəsinin əməkdaşları tərəfindən qarşılanıblar.





Sonra məktəblilər Heydər Əliyev Parkında təşkil edilən Novruz şənliyinə qatılıblar. Şagirdlər təşkil olunmuş sərgiləri, maraqlı bayram konsertini izləyib, əyləncəli oyunlara baxıblar.

Daha sonra rayonun görməli yerlərinə, tarixi məkanlarına, istehsal müəssisələrinə və turizm obyektlərinə ekskursiyaya çıxan məktəblilərə qrup rəhbərləri məlumat verib ki, bu gün respublikamızda əldə edilən sosial-iqtisadi inkişafın bariz nümunəsini Qəbələnin timsalında aydın görmək olar. Rayonda yaradılan yeni istehsal müəssisələri, sənaye və turizm infrastrukturu Qəbələnin iqtisadi inkişaf dinamikasının artmasında müstəsna rol oynayır. Beynəlxalq və irimiqyaslı tədbirlərin Qəbələdə keçirilməsi, bu diyarın təbii gözəlliyi turizmin inkişafına stimul verir.

Tur-aksiyada iştirak edən 4 qrupun 160 üzvü gün ərzində Heydər Əliyev Mərkəzi, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi, Heydər Əliyev adına Konqres Mərkəzi, tarix-diyarşünaslıq muzeyi, "Beltmann" Piano Fabriki, Nic qəsəbəsindəki "Cotari" Alban-Udi kilsəsi, Qəbələ Konserv Zavodu, Qəbələ Arxeoloji Mərkəzi, Nohur gölü, "Yeddi gözəl" şəlaləsi, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi ilə yaxından tanış olublar.

Qəbələyə təşkil edilən tur-aksiya zamanı şagirdlərin istirahəti ilə yanaşı, onların maariflənməsinə də böyük önəm verilib. Şagirdlər Qəbələyə səfərin sonunda beşulduzlu otellər və istirahət mərkəzləri, rayonda yaradılan müasir turizm infrastrukturu, bölgənin füsunkar təbiəti ilə də tanış olublar.

**«Qəbələ».**